*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 92-96* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.92*

## MƏTBUAT TARİXİ

# 1918-ci il 31 mart soyqırımı milli mətbuatımızın gözü ilə

**Samirə Kərimova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: Akademiya-elm@rambler.ru

**Annotasiya.** “1918-ci il 31 mart soyqırımı milli mətbuatımızın gözü ilə” başlıqlı məqalədə biz XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soyqırımı törətməsini həmin dövrün mətbuatında dərc edilmiş materiallar vasitəsilə tanış oluruq.
Biz 1918-ci il mart soyqırımının Azərbaycanın əsasən hansı bölgələrində olması, hansı mətbu orqanlarında hadisələrlə bağlı məqalələrin dərc edilməsi haqqında məlumat alır, dövrün mətbu orqanlarında əsasən hansı ziyalı və ədiblərimizin çıxışlarının, publisistik məqalələrinin dərc edilməsi ilə tanış oluruq.
Məqalədə 1918-ci il qanlı mart hadisələri zamanı Bakıda bolşevik-daşnak qüvvələri adı altında erməni millətçilərinin həmin dövr Azərbaycan mətbuatına çox ağır zərbələr vurması, həmçinin Almaniyadan gətirilən ən müasir çap avadanlıqları ilə təchiz olunmuş elektrik mətbəəsini yerlə-yeksan etmələri barəsində də danışılır.
**Açar sözlər:** soyqırım, milli mətbuat, qəzet, məqalə, bolşevik-daşnak

**Məqalə tarixçəsi:** göndərilib – 29.10.2024; qəbul edilib – 07.11.2024

# The March 31 genocide, 1918 through the eyes of our national press

**Samira Kerimova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: Akademiya-elm@rambler.ru

**Abstract.** In the article “The March 31 genocide, 1918 through the eyes of our national press” we learn about the ethnic cleansing policy and genocide committed by Armenians against Azerbaijanis at the beginning of the 20th century through the materials published in the press of that period.
We obtain information about the regions of Azerbaijan where the March 1918 massacre took place, and which media outlets published the articles related to the events in this article and witness the publication of speeches and publicistic articles by some of our intellectuals and writers in the press of that period.
In the article it is dealt with the heavy blows that Armenian nationalists inflicted on the Azerbaijani press during the bloody March events of 1918 in Baku under the guise of Bolshevik-Dashnak forces

and their destruction of an electric printing house equipped with the most modern printing equipment imported from Germany.
**Keywords:** genocide, national press, newspaper, article, Bolshevik-Dashnak

**Article history:** received – 29.10.2024; accepted − 07.11.2024

## Giriş / *Introduction*

Mətbuatın vacibliyi haqqında Seyid Hüseyn öz fikirlərini belə ifadə edirdi: "Mətbuat hər millətə, hər qövmə nəfs verər ki, o millətdə eşidən qulaq, dərk edən baş və yaxşını yamandan təmiz verən əql və fikir vermiş olsun. Mətbuat millətin dili məqamındadır". [4, s.5]

XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soyqırımı törətməsini arxiv sənədləri ilə yanaşı həmin dövrün mətbuatında dərc edilmiş məqalələr də təsdiq edir. Bütün bunlar erməni vandalizminin ifşa olunması baxımından tarixi olduğu qədər də siyasi və hüquqi əhəmiyyət kəsb edən səbəblərdəndir.

## Əsas hissə / *Main Part*

1918-ci il martın 31-i Bakıda, Şamaxıda, Qubada, Lənkəranda, Salyanda və digər şəhərlərimizdə törədilən qanlı soyqırımı aktı təkcə Azərbaycan türklərini say etibarı ilə azaltmağa yox, həm də xalqımızın mədəni inkişafına qarşı yönəlmiş terror aktı idi.

XIX əsrin sonlarından etibarən maarifpərvər insanlarımız əvvəlcə rus dilində, sonra isə, yəni 1906-cı ildən etibarən heyrətamiz bir sıçrayışla ana dilində "İttifaq", "Tərəqqi", "Səda", Sədayi-haqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal", "Həyat", "Təkamül", "İstiqlal" və s. adlı mətbu orqanlar yaratdılar. Və həmin dövrdə sözügedən bu mətbu orqanların da əksəriyyəti Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti ilə nəşr olunurdu.

Yuxarıda adları çəkilən mətbu orqanlarda Mart soyqırımı ilə bağlı nəinki hekayələr, şeirlər, həm də bir sıra publisistik məqalələr dərc edilirdi. Həmin buraxılışlarda, əsasən, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Mirzə Bala Məhəmmədzadə, Cəfər Cabbarlı, İbrahim Xəlil, Hacı Səlim Səyyah və digər ictimai xadim və ədəbiyyatşünasların çıxışları dərc edilirdi.

1918-ci ildə Tiflisdə nəşr olunan "Qardaş qayğısı" qəzetində çap olunmuş məqalələr də mart soyqırımına qarşı etirazın bariz nümunəsi idi. 1919-1920-ci illərdə nəşr edilən demokratik mətbuat orqanı olan "İstiqlal" qəzetinin mart buraxılışları ümumilikdə 31 Mart soyqırımı hadisələrinə həsr edilmişdir.

Təsadüfi deyil ki, Bakıda baş verən qırğınlar nəticəsində bolşevik-daşnak qüvvələri adı altında, əslində isə Şaumyanın başçılıq etdiyi erməni millətçiləri Azərbaycan mətbuatına çox ağır zərbə vurmağa nail oldular. Onlar hadisələrin baş verdiyi gün "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyalarını yandırdılar, Orucov qardaşlarına məxsus və Almaniyadan gətirilən ən müasir çap avadanlıqları ilə təchiz olunmuş elektrik mətbəəsini yerlə-yeksan etdilər, "Kaspi" mətbəəsində çap olunmuş hazır 5 minə qədər Quran kitabını yandırdılar. Ermənilərin mətbuata hücumları bununla yekunlaşmadı. Hətta qanlı hadisələr səngiyəndən sonra da Stepan Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin qərarı ilə "Hümmət" və "Bakı əxbarı" qəzetlərindən başqa bütün anadilli qəzetlərin fəaliyyətinə xitam verildi. Bu azmış kimi hadisələrə obyektiv yanaşan rusdilli "Kaspi", "Baku", "Bakinets", "Vest Baku", Naş qolos" kimi qəzetlər də, mart hadisələrinə düzgün qiymət vermədiklərinə və vahid sosialist cəbhəsində dayanmadıqlarına görə bağlandılar.

Lakin milli mətbuat və bu mətbuatın azərbaycanlı nümayəndələri tezliklə qəzet səhifələrinin onlara verdikləri imkandan istifadə edib həqiqəti geniş oxucu auditoriyasının diqqətinə çatdırmağa nail oldular. Həmin dövrdə "Azərbaycan", "İstiqlal", "Hümmət", "Açıq söz" və s. qəzetlərində dərc olunan məqalələr sonrakı illərdə də həmin hadisələrə real qiymət vermək üçün tarixi əhəmiyyətli qaynaq rolunu oynadı.

"Mart soyqırımından cəmi bir neçə ay sonra bu hadisələrlə bağlı məqalələr "Hümmət" qəzetinin səhifələrində görünməyə başladı. Qəzetin iyun ayında işıq üzü görən 6-cı nömrəsində "Şamaxı qaçqınlarının siyahısı" dərc olundu. Digər bir sayında isə "Şamaxı əhvalı" adlı məqalə işıq üzü gördü. Məqalədə "Şamaxı şəhəri bütünlüklə yanıb" cümləsi bütün hadisələri tamamilə ifadə edirdi" [2, s.4].

1918-ci il mart hadisələrinə dair qeydlərində Məhəmməd Əmin Rəsulzadə bunları diqqətə çatdırırdı: "Şaumyanın əlində bulunan "Bakı İşçi, Əskər Soveti" ("Бакинский рабочи") Erməni alaylarının, "Daşnaksutyun" partiyasının yardımı ilə müsəlman qurumuna qarşı kəskin bir yol tutdu. Gözləri önündə söz sorulmadan gəzən Erməni Alayı döyüşçülərini görən Müsəlman ulusu Müsəlman Alayının yaradılması üçün Tiflisdən göndərilən subayların "Sovet" milislərincə yoxlanılmasını görüncə, doğal olaraq qızışırdı. Belə gündən-günə çoxalan yandırım (mevadi ehraqiyə) sonucda bir araqarışdırıcı qığılcım ilə tutuşdu. 1918-ci ilin martın 17-dən 21-nə kimi (Yeni stillə 30 mart-2 aprel 1918-ci il) sürən qanlı Mart olaylarına nədən oldu. Bu olayla bolşeviklər bir çox bölgələrdə yapdıqları qanlı qırğınları Bakıda da uyğulayırdılar. İşçi-yoxsul Ağalığı adından "Müsavat" Partiyası ilə "Müsəlman Ulusal Şurası"na savaş açan "Bakı Soveti" Erməni alayları ilə birlikdə 12.000-ə yaxın müsəlman öldürdü (Azərbaycan Cumhuriyyəti Ağalığının 1918-ci il iyulun 15-də ermənilərin Azərbaycanda törətdikləri soyqırımı araşdırmaq üçün yaratdığı "Olanüstü Araşdırma Komissiyası" Rus-erməni-sovet-mason bolşrefaşistlərinin Bakıda 12 mindən çox türkü, müsəlmanı öldürdüyünü bölgələrlə doğrulamışdır" [6, s.46].

Məhəmməd Əmin Rəsulzadə "Azərbaycan" qəzetində dərc etdirdiyi "Unudulmaz faciə" adlı məqaləsində də Mart soyqırımına qiymət verərək yazırdı: "Günlər var ki, sevincinin böyüklüyü ilə, günlər də var ki, fəlakət və qüssəsinin əzəməti ilə unudulmaz. 31 mart ikinci günlərdən idi. O gün, o qətl, o öldürüş bizə, biz türklərə bağlanmış idi. O gün biz müsəlmanlara elani-hərb eləmişlərdi". [7]

Dövrünün qabaqcıl ziyalısı Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetində işıq üzü görən "31 Mart" məqaləsində qeyd edir ki, "İstiqlalımıza qarşı iftixaz edilmiş olan sui-qəsdlərindən özlərini "inqilabçılıq" nöqteyi-nəzərindən haqlı göstərmək niyyətilə adımızı "kontr-reyolyusiner" qoyub hücuma hazırlandılar. Hazırlanıb da başımıza Mart fəlakətini gətirib hədəflərinə müvəffəq olaraq, paytaxtımızı xarabazara döndərdilər" [3].

"Turan" Gənclər Təşkilatının xeyriyyə məqsədilə nəşr etdirdikləri qəzetdə isə daha dəhşətli məlumatlar öz əksini tapıb. Sözügedən qəzetdə qeyd edilirdi ki, "Xunxan erməni bandaları müsəlman izzəti-namusuna toxunub 12 yaşında qız uşaqlarını dizləri üstünə mindirib, namusuna təcavüz etdikdə təsəlliyat olurlar idi. Şamaxıda 400-dən ziyadə qoca islam ailələrini məscidin həyətinə yığıb siyirmə xəncər bunların üstünə düşüb vay həsrata ilə doğramışlar". [2, s.4]

Tanınmış ziyalı Akif Aşırlı (Akif Abduləzim oğlu Vəliyev) Mart soyqırımı ilə bağlı araşdırmasında qeyd edir ki, "həmin dövrün mətbuatında Şamaxıda törədilən qanlı hadisələrin Bakıda böyük təşviş yaratdığı və bolşevik-daşnak qüvvələrinin həmin cinayəti bu şəhərdə də həyata keçirəcəyi xəbərləri qeyd olunurdu. "Azərbaycan" qəzetinin 147-ci sayında dərc olunan "Mart hadiseyi-əléməsinin müxtəsər tarixçəsi" adlı məqaləsində müəllif yazırdı ki: "Martın 16-da xəbər gəldi ki, bolşevik soldatları Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına gələn müsəlman kəndlərini, o cümlədən Ağdərə, Novxanlı, Qarxunlu kəndlərini qarət edib, müsəlmanları qırıblar" [2, s.4].

Hadisələrin ağırlığından, faciənin dəhşətlərindən sarsılan Mirzə Bala Məhəmmədzadə qəzəb və kədərini sözlərlə ovutmaq və baş verənləri gələcək nəsillərə çatdırmaq məqsədi ilə "***31 mart***

***1918 sənə***” başlıqlı məqaləsində daha sonra yazır: “Bu gün hürr bir millətin paytaxtı olan Bakımızda qanlar axmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmiş. Bu gün – Bakı xalqı kəndi yurdunda qətlamə, əsirətə və məhkumiyyətə məruz qalmışdır.

Qanlı gün...

Bu gün Bakının ətrafından axan neft çeşmələri qan çeşmələrinə mübəddil olmuşdur. Bu gün Bakı sahilini boyayan Quzğun dənizi qan dənizinə çevrilmişdir” [5].

Ermənilərin Bakıda törətdikləri soyqırımlar zamanı Azərbaycan xalqının ziyalıları da hədəf seçilir, onlara qarşı xüsusi məkrli planlar işlənib hazırlanırdı. Bütün bunlar haqda da həmin dövrün mətbuatında kifayət qədər məlumatlar yer alıb. “İstiqlal” qəzetinin verdiyi məlumatdan aydın olur ki, “bolşevik-daşnak qüvvələrinin erməni millətindən olan üzvləri Müsavat partiyasının sədri M.Ə.Rəsulzadə və onun məsləkdaşı Seyid Hüseyni mühasirəyə alıb məhv etməyə cəhd göstərmişlər. Lakin xoşbəxtlikdən Rəsulzadə və Seyid Hüseyn mühasirəni yararaq xilas olmağa müvəffəq olublar. “Tuti” jurnalının təsisçisi və baş redaktoru Cəfər Bünyadzadə isə xilas olmağa müvəffəq olmur. Dadaş Bünyadzadənin mətbuata verdiyi məlumatdan aydın olur ki, Cəfər Bünyadzadə Bakı qırğınları zamanı qətlə yetirilib. Bundan əlavə ermənilər Ə.Topçubaşova, F.Xoyskiyə, N.Usubbəyliyə və digər ziyalılarımıza qarşı da sui-qəsd təşkil etməyə cəhd göstərirdilər” [1, s.14]. Bütün bunlar da o dövrün mətbuatında öz əksini tapmışdır.

31 mart hadisələri ilə bağlı mətbuatın fəaliyyəti ilə tanış olarkən Tiflisdə nəşr olunan “Qardaş qayğısı” qəzetinin fəaliyyəti xüsusi qeyd edilməlidir. 1918-ci ildə Türk Gənclər Təşkilatı tərəfindən 1918-ci il noyabr ayının 12-də yaradılan bu qəzet 31 mart soyqırımı ilə bağlı silsilə məqalələr dərc etdirir, bu qanlı faciəni Qafqazda olan digər xalqların da nəzərinə çatdırmağa çalışırdı.

“Qardaş əxbarı” qəzetində mart hadisələri ilə bağlı bu gün də böyük maraq doğuran, özündə önəmli faktları ehtiva edən məqalələr dərc olunurdu. Belə məqalələr arasında Binəvanın “Qanlı günlər”, Xanım Sultanovanın “Bakının mart hadisəsi”, Mirzə Bala Məhəmmədzadənin “Azəri türkləri”, “Naxçıvanlı” imzası ilə yazan jurnalistin “Qan dəryası”, Əsəd Seyfullazadənin “Mədəni bir zərbə” adlı yazılarını qeyd edə bilərik.

Ümumilikdə nəzər salsaq, 1918-ci ilin mart ayında baş verən qanlı hadisələrin həmin dövr milli mətbuatımızda öz əksini tapmasını elə də qənaətbəxş hesab etmək olmaz. Doğrudur, Azərbaycan Xalq Cümhuriyyəti zamanında müxtəlif qəzet və jurnallar bu mövzuya dəfələrlə qayıtmışlar. Lakin XX əsrin əvvəllərində xüsusilə də, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan mətbuatının vəziyyəti heç də ürəkaçan deyildi və çar hökuməti tərəfindən ciddi senzura tətbiq olunurdu. Bütün bunlara rəğmən həmin dövr ziyalılarımız, ədiblərimiz erməni vəhşiliyinə obyektiv qiymət verməyə cəhd göstərirdilər.

1918-ci il 31 mart hadisələrindən sonra Bakı Sovetinin belə bir qərar verməsi sübut edir ki, onlar törətdikləri qanlı əməlləri ört-basdır etməyə, hadisə ilə bağlı səs-küyün geniş yayılmamasına cəhd edirdilər. Həmin dövrdə milli mətbuatın ümumi vəziyyətinə nəzər salsaq görərik ki, mart ayından sonra bu sahədə durğunluq yaşanmışdır. Həm qanlı mart hadisələri, həm də Qafqaz İslam Ordusunun Bakını bolşevik-daşnak qüvvələrindən azad etmək üçün apardığı mübarizə, ölkədə, əsasən də, Bakıda yaranan gərgin vəziyyət mətbuatın normal fəaliyyətinə əngəl törədirdi.

## Nəticə / *Conclusion*

1918-ci ilin mart hadisələrinin həmin dövr mətbuatında istənilən səviyyədə işıqlandırılmaması yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanda hökm sürən siyasi və ictimai həyatın gərgin olması, mətbuatın fəaliyyəti üçün münbit şəraitin yaradılmaması ilə əlaqəli idi. Lakin bütün bunlara baxmayaraq dövrün ədibləri, ziyalıları xalqı maarifləndirmək, ayıq-sayıq olmağa sövq etmək məqsədilə hər fürsətdə mətbuatda soyqırımla bağlı, ictimai-siyasi mövzularla əlaqədar məqalələrlə çıxış edirdilər.

**Ədəbiyyat / *References***


1. Aşırlı, Akif. 31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında. – Bakı: Elm və təhsil, 2011.
2. Aşırlı, Akif. Milli mətbuatımızda 1918-cil il 31 mart soyqırımı (1918-1920-ci illər). “Şərq” qəzeti, 30 mart 2016. – s.4.
3. Hacıbəyli, Üzeyir. 31 mart. “Azərbaycan” qəzeti, 31 mart 1919.
4. Hüseyn, Seyid. Tənqid və tənqidçilərimiz, yaxud “Əlif-Leyla. “Şəhabi-saqib” jurnalı. 19 mart 1911, № 8. – s.5.
5. Məhəmmədzadə, Mirzə Bala. 31 mart.... “İstiqlal” qəzeti, mart 1919.
6. Rəsulzadə, Məhəmməd Əmin. Azərbaycan Cumhuriyəti. Yenidən işləyib çap edən Yadigar Türkel. – Bakı: 2015. – s.46.
7. Rəsulzadə, Məhəmməd Əmin. Unudulmaz faciə. “Azərbaycan” qəzeti, 31 mart 1919, №147.


## Отражение геноцида 31 марта 1918 года в национальной публицистике


**Самира Керимова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: Akademiya-elm@rambler.ru



**Резюме.** Статья знакомит с опубликованными в прессе начала XX века материалами об армянской политике этнической чистки азербайджанцев и её осуществлении 31 марта 1918 года. В статье приведены сведения о том, в каких районах Азербайджана особенно осуществлялся геноцид в марте 1918 года и в каких органах печати публиковались статьи об этих событиях. Статья свидетельствует о том, кто в основном из представителей литераторов и интеллигенции публиковал статьи в изданиях того времени. Приводятся сведения о том, что во время кровавых мартовских событий 1918 года армянские националисты в Баку при помощи большевистско-дашнакских сил нанесли тяжёлый удар азербайджанским органам печати тем, что ими была полностью уничтожена привезённая из Германии электрическая типография, оборудованная самыми современными печатными станками.


**Ключевые слова:** геноцид, национальная пресса, газета, статья, большевистско-дашнакский